STEAM AZƏRBAYCAN

SAF 2025
BEYNƏLXALQ
STEAM AZƏRBAYCAN FESTİVALI




# H2 GRAND PRIX PRO

## KATEQORİYASI

## FİNAL MƏRHƏLƏSİNİN QAYDALARI

BAKI 2025

# GİRİŞ

“H2GP” (Horizon Hydrogen Grand Prix) kateqoriyası– məktəblilər üçün hidrogen yanacaq elementlərindən istifadə edən elektrikli modellərin hazırlanmasına və yarışına əsaslanan beynəlxalq təhsil proqramıdır. Bu yarışlar STEAM (Elm, Texnologiya, Mühəndislik, İncəsənət və Riyaziyyat) sahələrinə marağı artırmaq, tələbələrin texnoloji biliklərini və komandada işləmə bacarıqlarını inkişaf etdirmək üçün təşkil olunur.

Proqram iştirakçılara hidrogen texnologiyalarını, enerji səmərəliliyini və davamlı nəqliyyatı araşdırmaq imkanı yaradır. Yarışçılar öz hidrogenlə işləyən modellərini dizayn edir, mühəndislik həlləri təklif edir və sınaqdan keçirirlər. Yarış bir neçə mərhələdən ibarətdir və regional, milli və beynəlxalq səviyyələrdə keçirilir.

Yarışın məqsədi şagird və tələbələrə bərpa olunan alternativ enerji və hidrogen texnologiyaları haqqında dərin biliklər vermək, STEAM sahəsində təcrübə qazandırmaq və texniki bacarıqları inkişaf etdirmək, komanda işi, problem həll etmə və innovativ düşüncə bacarıqlarını artırmaq, davamlı enerji mənbələrinin əhəmiyyətini anlamaq və real dünya problemlərinə həllər tapmaq, şagirdləri mühəndislik və elmi araşdırmalara təşviq edərək gələcəyin ixtiraçı və mühəndislərini yetişdirməkdir.

# 1.İŞTİRAK ŞƏRTLƏRİ

**1.1.** Hər bir komanda **1 nəfər 18 yaşdan yuxarı komanda rəhbəri** (mentor) və **yalnız 13–17 yaş aralığında olan 4 iştirakçıdan** ibarət olmalıdır.

**1.2.** Hər bir iştirakçı **yalnız bir komandada** və **yalnız bir kateqoriyada** iştirak edə bilər.

**1.3.** Eyni komanda rəhbəri **eyni kateqoriya üzrə bir neçə komandaya** rəhbərlik edə bilər.

**1.4.** Bir mentor **Beynəlxalq STEAM Azərbaycan Festivalının fərqli yarış kateqoriyalarında bir neçə** komandaya rəhbərlik edə bilər.

**1.5.** İştirakçı komandalar **Beynəlxalq STEAM Azərbaycan Festivalının Elmi Komitəsi tərəfindən edilən dəyişiklikləri** və **qaydalarda göstərilən bütün şərtləri** qəbul etmiş sayılırlar.

**1.6.** Beynəlxalq STEAM Azərbaycan Festivalında iştirak edən komandaların adları **siyasi, dini, hərbi və ya münaqişə** mövzularını əks etdirməməlidir.

# 2.İŞTİRAKÇILARIN DAVRANIŞ QAYDALARI

**2.1.** İştirak edən komandalar sağlam rəqabət prinsiplərinə əməl etməli, digər iştirakçılarla mübahisəyə girməməli, onları təhqir etməməli, fiziki qarşıdurma və ya təxribat xarakterli davranışlardan çəkinməli, digər komandaların layihələrinə qəsdən zərər verməməli və onların əşyalarını icazəsiz götürməməlidirlər. Qaydaların pozulması halında tətbiq olunacaq cəza tədbirləri pozuntunun xarakteri və ciddiliyi nəzərə alınmaqla müəyyən ediləcəkdir.

**2.2.** İştirakçı komandalar təhlükəsizlik qaydaları barədə məlumatlı olmalı və həm öz komandalarının, həm də digər iştirakçıların təhlükəsizliyini riskə atan hər hansı davranışdan çəkinməlidirlər.

**2.3.** Yarış zamanı komanda rəhbərlərinin və müşayiətçi şəxslərin yarış meydanına daxil olması, habelə yarış ərazisinə kənardan hər hansı şəkildə müdaxilə etməsi qadağandır. Əgər

komanda rəhbəri və ya müşayiətçi şəxs komandasına qeyri-rəsmi formada dəstək göstərir və ya digər komandaların çıxışlarına müdaxilə edirsə, hakim belə hallara görə xəbərdarlıq etmək, komandanı diskvalifikasiya etmək və müvafiq intizam tədbirləri tətbiq etmək səlahiyyətinə malikdir.

**2.4.** Hər bir iştirakçı bir kateqoriyada yarışmaqla məhdudlaşır. Qeydiyyatın təkrarlanması, saxta qeydiyyat, yarış iştirakçısının yaşının təhrif edilməsi, müsabiqə iştirakçılarının icazəsiz dəyişdirilməsi və s. qəti qadağandır. Bu və oxşar hallar aşkar olunduqda və müvafiq qaydada təsdiqləndikdən sonra iştirakçı yarışmadan diskvalifikasiya ediləcəkdir.

**2.5.** Qaydalarda nəzərdə tutulmayan fors-major hallar baş verərsə, qərarlar təşkilatçılar tərəfindən veriləcəkdir.

# 3. MÜRACİƏT ÜSULU

**3.1.** Müraciətlər Beynəlxalq STEAM Azərbaycan Festivalının rəsmi veb-saytı üzərindən qəbul ediləcək. **https://saf.steam.edu.az/az**.

# 4. BİZNES PLAN

**4.1.** Biznes plan hazırlanması üçün aşağıda nümunə verilmişdir:

- **Bizim Komanda**
  Bu bölmədə komandanın kimlərdən ibarət olduğu, hansı dəyərləri təmsil etdiyi və əsas məqsədlərinin nə olduğu izah edilməlidir. Komandanın unikal xüsusiyyətləri və fərqləndirici cəhətləri vurğulanmalıdır.

- **Komandanın Missiyası**
  Bu bölmədə komandanızın uzunmüddətli məqsədləri və hansı sosial və ekoloji problemləri həll etməyə çalışdığı izah edilməlidir. Missiya, komandanın nə üçün mövcud olduğunu və əsas dəyərlərini əks etdirməlidir.

- **Komandanın Vizyonu**
  Burada komandanızın gələcəkdə hara çatmaq istədiyi və nə kimi təsir göstərmək istədiyi izah edilməlidir. Vizyon, komandanın uzunmüddətli perspektivdə hədəflərini əks etdirir.

- **H2GP nədir? (The Hydrogen Grand Prix)**
  Bu bölmədə H2GP yarışlarının mahiyyəti, məqsədləri və şagirdlərə qazandırdığı bacarıqlar izah edilməlidir.

- **Təşkilati Plan**
  Burada komandanın idarəetmə strukturu, əsas vəzifələr və üzvlərin məsuliyyətləri təsvir edilməlidir.

- **Niyə sponsorlara ehtiyacımız var?**

Bu bölmədə sponsorların niyə vacib olduğu, onların dəstəklərinin komandaya necə təsir göstərəcəyi izah edilməlidir.

- **SWOT Analizi**
  Bu bölmədə komandanın güclü və zəif tərəfləri, qarşısına çıxan imkanlar və risklər təhlil edilməlidir.

- **Marketinq və Maliyyə Strategiyası**
  Bu bölmədə komandanın maliyyə və marketinq planı, sponsorların cəlb edilməsi üçün strategiyalar və gəlir mənbələri haqqında məlumat verilməlidir.

- **Fəaliyyət Planı və Risk Təhlili**
  Fəaliyyət Planı: Bu bölmədə yarışa hazırlıq prosesində komanda hər ay hansı fəaliyyətlərlə məşğul olduğunu yazmalıdır. Yəni komanda öz portfoliosunu təqdim etməlidir.
- Risk Təhlili:
    1. Maliyyə riskləri
    2. Texniki problemlər
    3. Komanda daxili problemlər

# 5. SPONSORLARIN CƏLB EDİLMƏSİ

Komandamızın inkişafı və H2GP yarışlarında uğurlu iştirakı üçün sponsor dəstəyi vacibdir. Buna görə də hər bir komanda özünə ən azı bir sponsor tapmalı və bu sponsorla əməkdaşlıq qurmalıdır. Sponsor dəstəyi komandaya yalnız maliyyə baxımından deyil, həm də təcrübə, mentorluq və şəbəkələşmə imkanları qazandıracaq.

Komandalar aşağıdakı metodlardan istifadə edərək sponsor tapa bilərlər:

- Təhsil və texnologiya sahəsində fəaliyyət göstərən şirkətlərə müraciət edərək;
- Yerli bizneslər və müəssisələrlə əlaqə quraraq;
- STEAM və alternativ enerji sahəsində çalışan təşkilatlarla əməkdaşlıq yaradaraq;
- Sosial media və digər platformalarda komandanın fəaliyyətini tanıdaraq.

# 6. DRESS CODE (GEYİM TƏRZİ)

**6.1.** İştirakçıların diqqətinə:
H2GP yarışlarında komandamızın vahid və peşəkar görünməsi üçün hər bir iştirakçı müəyyən edilmiş dress kod qaydalarına riayət etməlidir. Bu, komanda ruhunu gücləndirməklə yanaşı, həm də tədbir zamanı ciddi və təşkilatlanmış bir imic yaratmağa kömək edəcək.

**6.2.** Dress kodun əsas qaydaları:

- ☑ Komanda loqosu olan  forma
- ☑ Rahat və nizamlı geyim (idman)

☑ Qapalı ayaqqabı (təhlükəsizlik üçün)

☑ Komanda ruhunu əks etdirən aksesuarlar (istəyə bağlı, məsələn, eynicinsli bilərziklər və ya papaqlar)

**6.3.** Qadağan olunur:

✖ Həddindən artıq parlaq və ya uyğun olmayan geyimlər

✖ Təhqiredici və ya uyğun olmayan yazılar və loqolar

✖ Açıq ayaqqabı və ya yarış mühitinə uyğun olmayan geyimlər

Bu qaydalar həm yarış zamanı təhlükəsizliyi təmin etmək, həm də komandamızın vahid və nizamlı bir görüntü sərgiləməsi üçün nəzərdə tutulub. Hər komanda öz dress koduna uyğunlaşaraq tədbirə hazırlıqlı gəlməlidir.